# Türk dünyasının aşıqları

*Zahid Məmmədovu çoxdan tanıyırıq. Yaxşı saz çalır. Gözəl avazı var. Ünsiyyətcil, dostcanlı, qonaqsevərdir. Ona həvalə olan işi biz qayda olaraq vaxtında və keyfiyyətlə həyata keçirir.*

Zahidlə bu günlərdə Türkiyə səfərindən qayıtdıqdan sonra görüşdük. Qardaş ölkədən yüksək təəssüratla dönmüşdü. Ürək sözlərini müxbirimizlə bölüşdü:

– Türkiyəyə bizi Ərzurum universitetinin professoru Əli Qafqaziyalı dəvət etmişdi. O, respublikanın müxtəlif təşkilatları, ayrı-ayrı sənət adamları ilə əlaqə saxlamış, 2 ay əvvəl Aşıq Altay Məmmədov və mənim I Uluslararası Türk aşıqlarının festivalına qoşulmağımı xahiş etmişdi. Azərbaycan bu tədbirdə həmçinin gözəl şairimiz Məmməd Aslanla təmsil olunurdu. Festivalda Azərbaycan, Türkiyə və İrandan əlavə Almaniya, Gürcüstan, İraq, Bolqarıstan, Ukrayna, Rusiya və başqa ölkələrdən də nümayəndələr vardı.

Tədbir çox yüksək səviyyədə keçdi. Festivalın son günü yazdığım şeiri Altayla ifa etdik. Gözəl alındı. Qoşma toplantıya həsr olunmuşdu. İlk dəfə səslənən bu musiqini ifa etməzdən əvvəl Əli Qafqaziyalı ilə məsləhətləşdik. İki nəfər İran aşığı və bir Qaşqay türkü də bizə qoşuldu.

***Milyon illər keçib gəlib,***
***Yaxşı-yaman seçib gəlib,***
***Birlik suyu içib gəlib, –***
***Şən yaşasın türk dünyası,***
***Yer üzün tutsun sədası.***

***Bu dünyanın nəğməsiyik,***
***Biz zamanın haqq səsiyik,***
***Oğuz xanın nəvəsiyik, –***
***Şən yaşasın türk dünyası,***
***Yer üzün tutsun sədası.***

***Qazaxıstan, Qırğızıstan,***
***Türkmənistan, Özbəkistan,***
***Türkiyəylə Azərbaycan, –***
***Şən yaşasın türk dünyası,***
***Yer üzün tutsun sədası.***

***Aşıq Zahid Şirvanlıyam,***
***Eyham ilə soraqlayan***
***Türkün şöhrəti-şanlıyam,-***
***Şən yaşasın türk dünyası,***
***Yer üzün tutsun sədası.***

Sonda bizə diplom və fəxri fərmanlar verildi. Biz festivalda "Müxəmməs", "Koroğlu", "Şirvan gözəlləməsi", "Şirvan şikəstəsi", "Aran gözəlləməsi" və s. oxuduq.

**X. ASLANOVA**

*Redaksiyadan: Zahid Məmmədov 1959-cu ildə Şamaxının Göydərə kəndində anadan olub. Ustad Qulamdan dərs alıb. Bir sənətkar kimi yetişməsində kənddəki ədəbiyyat müəllimi Maarif Qafarovun zəhməti də danılmazdır. İncəsənət gimnaziyasının tar sinfini, N.Tusi adına ADPU-nin musiqi-pedaqoji fakültəsini bitirib. Mərəzədəki musiqi məktəbində müəllim və direktor işləyib. Rayonda çoxlusayda yetirməsi var.*



